# Qorqudşünaslığın yeni zirvəsi *və ya* Kamal Abdulla fenomeni



**Sabir RÜSTƏMXANLI**

Filologiya elmi və bədii yaradıcılıq... Nə qədər yaxın görünsələr də bu iki sahədə paralel şəkildə və eyni uğurla fəaliyyət göstərmək getdikcə çətinləşir. Bilgi axını, informasiyanın və elmi-nəzəri ədəbiyyatın ildən-ilə çoxalması universallıq imkanlarını azaldır, elmlər şaxələnir, ixtisaslaşmalar gedir, fikrin səthi genişliyinin yerini dərinləşmə tələbi tutur. Üstəlik, üzdə olan, tanınmış ziyalıların milli qayğılardan, xalqın taleyi ilə bağlı olan ictimai-siyasi gedişatdan kənarda qalmasının mümkünsüzlüyünü də bura əlavə edəndə müasirimiz olan qələm sahiblərinin yükünün nə qədər ağır olduğu aydın görünər.

Yolun başlanğıcında bir neçə sahədə iddiasını və bacarığını ortaya qoyanlar sonradan istedadlarının özəlliyi və tələbi ilə başladıqları yolların birini seçmək, diqqətlərini bir sahəyə yönəltmək məcburiyyətində qalırlar.

Lakin universallığı axıra qədər qoruyub saxlamağı bacaran xüsusi istedad sahibləri də var ki, ümumi mənzərədə istisna təşkil edirlər. Məsələn, mən Anarın, Elçinin, Rəfael Hüseynovun, İsa Həbibbəylinin, Vaqif Sultanlının, Rəhim Əliyevin filologiya və ədəbiyyatşünaslıq sahəsində uğurlarını onların bədii yaradıcılıqlarından az əhəmiyyətli saymıram və ya tərsinə... Bu sıraya aid olan parlaq ədib simalardan biri də Azərbaycanın Xalq yazıçısı, Əməkdar elm xadimi, AMEA-nın həqiqi üzvü, akademik Kamal Abdulladır. Kamalın ömrü elmi və pedaqoji işlə bədii yaradıcılığın qovuşağında kasıb, bir əlində elm, bir əlində bədii yaradıcılıq gəlib ömrünün yetmişinci baharına, ya qışına (fərqi yoxdur) çıxıb: bu sahələrin hər birində nüfuz qazanıb.

Kamal Abdullanın elmi fəaliyyəti də öz-özlüyündə çoxcəhətlidir. O, elmi fəaliyyətinin ilk illərini dilçilik problemlərinin öyrənilməsinə sərf etmişdir. 1983-cü ildə çap olunan "Azərbaycan dilində sadə cümlə sintaksisin nəzəri problemləri" adlı kitabı onun dilçilik sahəsində uğurlu elmi axtarışlarının ilk qaranquşu idi. Sonralar o, bu axtarışlarını genişləndirərək dilçiliyin ümumi problemləri ilə, Azərbaycan türkcəsinin yayılması və Avropa ölkələrində təbliği işi ilə də məşğul olmuş ədəbiyyatşünaslıq, tənqid və estetika ilə də bağlı müxtəlif məqalələr və kitablar çap etdirmişdir.

Kamal Abdulla həm bədii, həm elmi yaradıcılıqda bütün ömrü boyu daim yenilik axtarmış, öz yolunu, üslubunu tapmağa, tarixin və müasir günlərimizin yeni prinsiplərlə dərkinə çalışmışdır.

Ömrün 70-nə yüksəlmiş qələm dostumuzu mən gənclik illərindən, ilk şeirlərindən tanıyıram. Harda, hansı vəzifədə olmasından, aramızdakı məsafələrdən asılı olmayaraq Kamalı həmişə yaxında hiss etmişəm, həmişə bir səngərdə olmuşuq. Fikirayrılıqlarımız da olub və təbii ki, həmişə olacaq: lakin bu, prinsipial ayrılıq deyil və millətimizin taleyi ilə bağlı mövqe birliyimizə heç vaxt təsir göstərməyib.

1988-ci ilin meydan hadisələri Kamalı mənə daha da doğmalaşdırmışdı. Adını ziyalı, alim qoyub, ağır günlərdə qaçıb gizlənənlərdən, gözə görünməyənlərdən fərqli olaraq, Kamal meydanda, xalqın arasındaydı. Kürsüdə aydın və ağıllı baxışla - qaragüruhçuluq üz-üzə gələndə cəsarətlə ortaya çıxdı, çiyin-çiyinə dayandıq. 1988-ci il meydan epopeyasının qansız-qadasız ötüşməsində Aydın Məmmədov və Kamal Abdulla kimi ziyalılarımızın rolu böyükdür...

Məncə, Kamal bəy ədəbiyyatşünas-alim kimi ciddi uğurlarını daha çox Azərbaycan-türk bədii sözünün, mifik təfəkkürün ən böyük abidəsi olan "Kitabi-Dədə Qorqud"la bağlı araşdırmasında qazandı; Qorqudşünaslığa yeni hava gətirən alimin "Gizli Dədə Qorqud", "Sirr içində dastan və ya gizli Dədə Qorqud", "Mifdən yazıya və ya gizli Dədə Qorqud", Moskvada rusca "Kitabi-Dədə Qorqud poetikasına giriş" kitabları dərin elmi təfəkkürü və folklora yanaşma tərzinin orijinallığı ilə seçilir. Onun bu sahədəki araşdırmaları Qorqudşünaslıqda yeni sözdür və bu yenilik həmin sahə ilə məşğul olan alimlər tərəfindən etiraf olunmuşdur.

Maraqlıdır ki, Kamal Abdullanın nəsr yaradıcılığının da əsas ilham qaynaqlarından biri elə dünya epos xəzinəsinin bu nadir, tayı-bərabəri olmayan incisi oldu. Dədə Qorqud dünyası paralel şəkildə onun həm elmi araşdırmalarını, həm də postmodernizm nümunələri sayılan romanlarını qidalandırdı. "Yarımçıq əlyazma", "Unutmağa kimsə yox", "Sehrbazlar dərəsi", "Sirlərin sərgüzəşti" romanları çağdaş nəsrimizin ən çox oxunan və ən çox müzakirə olunan əsərləri sırasındadır; elmi monoqrafiyaları ilə yanaşı, çoxdan Azərbaycan hüdudlarını aşaraq bir sıra xarici dillərə çevrilmiş, həmin ölkələrin də oxucularının intellekt və maraq orbitinə daxil olmuşdur.

Bütün bunlar nəzərə alınanda demək olar ki, öz 70 yaşına Kamal Abdulla əlidolu gəlmişdir, oxucu və millət qarşısında üzüağdır. O mənə həm də müdrik ictimai xadim, gözəl insan, gənclərin himayədarı, qayğıkeş müəllim, pedaqoq, əsl ziyalı, ayıq vətəndaş kimi əzizdir. Ürəyi işıqla dolu olduğuna görə 70 yaşında da gənclik ruhunu və yaradıcılıq eşqini qoruyub saxlamışdır...